**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNIVERSITETI**

**Magistratura pilləsi üçün**

**İXTİSAS: 060112 - COĞRAFIYA MÜƏLLIMLIYI**

# İF-M 10462 “COĞRAFI BİLİKLƏRİN QIYMƏTLƏNDIRİLMƏSI”

**fənninin**

# P R O Q R A M I

**Bakı Dövlət Universiteti TMŞ yanında Tədris vəsaitlərinə nəşr hüququnun (qrif) verilməsi üzrə daimi fəaliyyət göstərən Komissiyanın qərarı ilə təsdiq edilmişdir ( protokol № )**

**Bakı 2016**

## COĞRAFI BİLİKLƏRİN QIYMƏTLƏNDIRİLMƏSI

### İzahat vərəqi

«Coğrafi biliklərin qiymətləndirilməsi» fənni "Coğrafiya müəllimliyi" istiqamətində «Coğrafiyanın tədrisi metodikası və metodologiyası» ixtisası üzrə magistratura pilləsində II kursun III semestrində 30 saat (15 saat – mühazirə, 15 saat məşğələ) həcmində tədris edilir. "Coğrafi biliklərin qiymətləndirilməsi" kursunun başlıca məqsədi

***Bilməlidir:***
- milli kurikulumun tətbiq edilməsi ilə əlaqədar olaraq şagirdlərin bilik və bacarıqlarının qiymətləndirməsində tətbiq edilən yenilikləri təhlil etməyi;
- şagird nailiyyətlərinin qiymətləndirilməsinə yeni yanaşmaların mahiyyətini və onun əhəmiyyətini izah etməyi;
- yeni qiymətləndirmə sistemində mövcud olan qaydaları

***Bacarmalıdır:***
- diaqnostik qiymətləndirmənin üsul və vasitələrindən istifadə etməyi;
- formativ qiymətləndirmənin üsul və vasitələrindən istifadə etməyi;
- summativ qiymətləndirmənin üsul və vasitələrindən istifadə etməyi;
- Coğrafiya fənninin tədrisində qiymətləndirmə meyarlarını təhlil etməyi.

***Yiyələnməlidir:***
- test tapşırıqlarının tətbiq edilməsində istifadə olunan metodlara;
- qiymətləndirmə formalarını və vasitələrini coğrafiya fənninə tətbiq etməyə;
- coğrafiya fənninin tədrisində rubrik və qiymətləndirmə səviyyələrini müəyyən etməyə.

Proqram həmdə magistr dissertasiyası üzərində müstəqil tədqiqatlar aparılmasında yardımçı vasitə rolunu oynaya bilər

### Mövzular üzrə saatların paylanması

| № | Mövzular | cəmi | o cümlədən | |
|---|---|---|---|---|
| | | | müh. | sem. |
| 1. | Qiymət və qiymətləndirmə anlayışı | 4 | 2 | 2 |
| 2 | Müasir dövrdə şagirdlərin qiymətləndirmə fəaliyyətinə qoyulan tələblər | 4 | 2 | 2 |
| 3. | Qiymətləndirmənin növləri | 4 | 2 | 2 |
| 4 | Diaqnostik qiymətləndirmə | 4 | 2 | 2 |
| 5 | Formativ qiymətləndirmə | 4 | 2 | 2 |
| 6 | Summativ qiymətləndirmə. | 4 | 2 | 2 |
| 7 | Test tapşırıqlarının bilikləri qiymətləndirmədə rolu. | 4 | 2 | 2 |
| 8 | Qiymətləndirmə vasitələrinin hazırlanması. | 2 | 1 | 1 |
| | Cəmi: | 30 | 15 | 15 |

**1.Qiymətləndirmə anlayışı.** Ənənəvi və müasir qiymətləndirmənin müqayisəsi. Yeni qiymətləndirmə sistemi. Fəal təlim prosesində qiymətləndirmənin mahiyyəti. Şagirdlərin bilik və bacarıqlarının qiymətləndirməsində ənənəvi qiymət normalarının tətbiqi. Dünyanın müxtəlif ölkələrində qiymətləndirmənin vəziyyəti (2),(3),(4),(5).

**2.Müasir dövrdə şagirdlərin qiymətləndirmə fəaliyyətinə qoyulan tələblər.** Yeni qiymətləndirmə sisteminin təhsildə müsbət dəyişikliklər yaratması. Qiymətləndirmə standartları. Qiymətləndirmənin təhsilin keyfiyyəti üçün əsas göstərici olması.B.Blüm sistematikası.Sualların modelləşdirilməsi və açar sözlər. Bilik, dərketmə, tətbiq, təhlil, sintez, qiymətləndirmə. “Şagirdin təlim nəticələri" və qiymətləndirmə. Müasir qiymətləndirmənin məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsi.Şagird nailiyyətlərinin qiymətləndirilməsinə yeni yanaşmalar. Qiymətləndirmə konsepsiyasının yaradılmasına olan tələblər. “Azərbaycan Respublikasının Qiymətləndirmə Konsepsiyası” sənədinin təhlili (1),(2),(3).

**3.Qiymətləndirmənin növləri**. Beynəlxalq qiymətləndirmə və onun mahiyyəti. Milli qiymətləndirmə. Məktəbdaxili qiymətləndirmə. Məktəbdaxili qiymətləndirmənin növləri. Monitorinq anlayışı (1),(2),(4),(5).

**4. Diaqnostik qiymətləndirmə**. Diaqnostik qiymətləndirmənin şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsinin müəyyənləşdirilməsində rolu. Şagirdin potensial

imkanlarının üzə çıxarılması. Diaqnostik qiymətləndirmənin həyata keçirilməsi. Diaqnostik qiymətləndirmədə tətbiq edilən üsullar. Qiymətləndirmə vasitələri. Diaqnostik qiymətləndirmə üçün üsulların seçilməsi. Diaqnostik qiymətləndirmənin nəzərə alınması. Coğrafiya fənni üzrə ayrı-ayrı siniflər üçün nümunələrin hazırlanması (1),(2),(5).

**5. Formativ qiymətləndirmə.** Formativ qiymətləndirmənin şagirdin faktiki bilik və bacarıqlarının səviyyəsinin müəyyən edilməsində əhəmiyyəti. Şagirdin təlim fəaliyyətinin izlənməsində formativ qiymətləndirmədə rolu. Formativ qiymətləndirmənin həyata keçirilməsi. Formativ qiymətləndirmə jurnalı və məktəbli kitabçası. Holistik qiymətləndirmə. Holistik qiymətləndirmə sxeminə nümunənin hazırlanması. Analitik qiymətləndirmə. Formativ qiymətləndirmədə istifadə olunan üsul və vasitələr. Qiymətləndirmə vasitələri. Formativ qiymətləndirmə üçün üsulların seçilməsi. Coğrafiya fənni üzrə ayrı-ayrı siniflər üçün nümunələrin hazırlanması (3),(4),(5).

**6. Summativ qiymətləndirmə.** Summativ qiymətləndirməyə verilən tələblər. Şagirdin yekun biliklərinin izlənməsində formativ qiymətləndirmənin rolu. Formativ qiymətləndirmənin növləri. Kiçik summativ qiymətləndirmə. Böyük summativ qiymətləndirmə. Böyük və kiçik summativ qiymətləndirmənin hesablanması. İllik və yarımillik qiymətlərin çıxarılması. Summativ qiymətləndirmənin rəsmiləşdirlməsi. Şagird portofoliosunun qiymətləndirilməsi (1),(2),(5).

**7. Test tapşırıqlarının qiymətləndirmədə rolu.** Bilik və bacarıqların yoxlanılmasında test tapşırıqlarının əhəmiyyəti. Test tapşırıqlarının relevantlıq dərəcələri: terminoloji, faktoloji, izahat, hesablama, proqnoz xarakterli testlər, təklif edilən fəaliyyət, ümumiləşdirmə testlər. Test tapşırıqlarının mürəkkəblik səviyyəsinə görə qruplaşması. Coğrafiya fənni üzrə tərtib edilən test tapşırıqlarının səciyyəsi. TQDK –nın test tapşırıqları.Buraxılış və ali məktəblərə qəbul imtahanları üçün hazırlanmış test tapşırıqları. Müəllimlərin işə qəbulu üzrə test tapşırıqlarının ümumi təhlili (1),(4),(5).

**8. Qiymətləndirmə vasitələrinin hazırlanması.** Qiymətləndirmə standartlarının tərtib edilməsi. Coğrafiya fənni üzrə müxtəlif siniflər üzrə qiymətləndirmə standartlarının təhlili. BSQ və KSQ-lər. İllik qiymətlərin hesablanması. Qiymətləndirmə düsturu (3),(4),(5).

## Ədəbiyyat

### Əsas

1.Şagird nailiyyətlərinin qiymətləndirilməsi VI sinif. TQDK (azərb və rus dilində) Metodik vəsait. "Şərq-Qərb" nəşriyyatı 2014. 237s
2.Şagird nailiyyətlərinin qiymətləndirilməsi VII sinif. TQDK. (azərb və rus dilində) Metodik vəsait "Şərq-Qərb" nəşriyyatı 2015. 237s

3.Şagird nailiyyətlərinin qiymətləndirilməsi VIII sinif. TQDK. Metodik vəsait "Şərq-Qərb" nəşriyyatı 2016. 237s

**Əlavə**

4.Veysova Z. A. Fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2-ci modulu üzrə "Ümummi orta təhsil səviyyəsi üçün yeni fənn kurikulumlarının tətbiqi Coğrafiya fənni üzrə təlimçilər üçün vəsait "İnkişaf" elmi mərkəzi, 2014, 168 s.
5. Süleymanova A.Y, Təhsilin əsasları, Dərs vəsaiti Bakı "Təhsil" nəşriyyatı , 2014, 399 s.